AZƏRBAYCAN RESPUBLİKASI

**TƏHSİL NAZİRLİYİ**

*№ 46-03-274/16*

*« 21 » 01 2004 il*

**Dövlət və qeyri-dövlət ali və orta ixtisas məktəblərinin rəhbərlərinə**

Təhsil Nazirliyi bildirir ki, Azərbaycan və Rusiya hökumətləri arasında təhsil sənədlərinin tanınması barədə sazişin müddəalarına uyğun olaraq Rusiya Federasiyasının ali və orta ixtisas məktəblərinin məzunları və ya müvafiq kursdan sonra təhsilini Azərbaycanın ali və orta ixtisas məktəblərində növbəti pillədə və ya kursda davam etdirmək istəyən hər bir şəxsin sənədi Rusiya Federasiyasının Təhsil Nazirliyində «apostil» möhürü vurdurulmaqla leqallaşdırılmalıdır. Digər ölkələrdən alınmış təhsil sənədləri isə Azərbaycan Respublikasının təhsil haqqında sənəd verilən ölkədaki səfirliyində (konsulluğunda) və ya Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin konsulluq idarəsində leqallaşdırılmalıdır. Təhsil sənədləri leqallaşdırılmayan şəxslərə təhsilini növbəti pillə və ya kursda davam etdirməyə icazə verilməyəcəkdir.

**Misir Mərdanov**